# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №3 (7337) | 17 fevral 2014-cü il | bazar ertəsi | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


# TARİXİMİZİN UNUDULMAZ QƏHRƏMANLIQ SALNAMƏSİ

## 20 YANVAR FACİƏSİNİN 24-CÜ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ ÜMUMŞƏHƏR TƏDBİRİ



**Yanvarın 20-də müstəqil respublikamızın paytaxtında, regionlarda, eləcə də ölkəmizdən kənarlarda da 24 il öncə keçmiş Sovet ordusunun xalqımıza qarşı törətdiyi qanlı faciənin ildönümü geniş qeyd olundu.**

Mübarizlik və qəhrəmanlıq günümüz 20 Yanvarın 24-cü ildönümü şəhərimizdə də, həmişəki kimi yüksək səviyyədə keçirildi.

Öncə, Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyətin, qaçqın və köçkünlərin nümayəndələri Şəhidlər xiyabanında igid oğullarımızın qəbirlərini ziyarət etmişlər, şəhidlərin qəbirləri üstünə qərənfillər düzülmüş, ruhlarına dualar oxunmuşdur.

20 Yanvar faciəsinin 24-cü ildönümünə həsr olunmuş ümumşəhər tədbir 20 Yanvar abidə-kompleksi önündə başlandı.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov tədbirdə çıxış edərək dedi ki, bu faciədən 24 il ötür. Lakin qədirbilən xalqımız 20 Yanvar şəhidlərinin xatirəsini heç vaxt unutmur və unutmayacaq.

1990-cı ilin 19 yanvarından 20 yanvarına keçən gecə keçmiş Sovet rəhbərliyi xalqımızın azadlıq və istiqlaliyyət mübarizəsini boğmaq məqsədilə fövqəladə vəziyyət elan etmədən Bakı şəhərinə xüsusi təyinatlı qoşun yeritdi. Həmin gecə 131 nəfər dinc sakin vəhşicəsinə qətlə yetirildi. 744 nəfər yaralandı, 841 nəfər həbs edildi.

Xalq, el, torpaq uğrunda şəhid olanlar unudulmur, unudulmayacaq da. Ulu öndər Heydər Əliyev tərəfindən şəhid ailələrinə diqqət və qayğı göstərilmişdir. Heydər Əliyev kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Bakıda Şəhidlər xiyabanında şərq memarlıq üslubunda əsaslı abadlıq və yenidənqurma işləri aparıldı.

Ölkə başçısı İlham Əliyevin şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə göstərdiyi diqqət və qayğı regionlarda uğurla davam etdirilir.



Şəhər icra hakimiyyətinin başçısı M.T.Camalov dedi ki, Prezident Administrasiyasının rəhbəri cənab Ramiz Mehdiyevin sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq şəhər icra hakimiyyəti 20 Yanvar faciəsinin 24-cü ildönümünün qeyd edilməsi ilə əlaqədar tədbirlər planı hazırlamışdır. Şəhərimizdə şəhidlərə həsr olunmuş anım mərasimləri keçirilmişdir.

Başçı çıxışının sonunda əminliklə bildirdi ki. xalqımızın haqq işi qalib gələcək. Ölkə Prezidenti cənab İlham Əliyev bu istiqamətdə məqsədyönlü iş aparır. İnanırıq ki, tezliklə işğal olunmuş torpaqlarımız düşmən tapdağından təmizlənəcək. Şəhidlərimizin qanı yerdə qalmayacaq.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Milli Qəhrəman Nofəl Quliyev adına 9№-li tam orta məktəbin şagirdləri 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş ədəbi-bədii kompazisiya ilə çıxış etdilər.

20 Yanvar şəhidi Elçin İmanov adına 10 nömrəli tam orta məktəbin tarix müəllimi, şəhidin müəllimi Gülarə Axundova, Zəngilan qaçqınları adından Rizvan Şükürov, din xadimi Hacı Vasif çıxış etdilər.

Saat 12⁰⁰-dir. Respublikamızın hər yerində olduğu kimi, şəhərimizdə də 20 Yanvar şəhidlərinin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edildi. Avtomobillərdən və qatarlardan siqnallar verildi.

Şirvan şəhər İcra Hakimiyyəti başçısı M.T.Camalov 20 Yanvar abidə-kompleksi önünə əklil qoydu. Tədbir iştirakçıları abidə ətrafına tər qərənfillər düzdülər.

Ümumşəhər tədbiri şəhər icra hakimiyyətinin başçısı M.T.Camalovun, Şura üzvlərinin, hüquq-mühafizə orqanları rəhbərlərinin, qaçqın-köçkünlərin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə el qəbiristanlığında uyuyan şəhid məzarlarının ziyarəti ilə yekunlaşdı.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**



**14 fevral 2014-cü il tarixdə Şirvan şəhərində 2013-cü ilin ictimai-siyasi və sosial-iqtisadi sahələrində görülmüş işlər və qarşıda duran vəzifələrə həsr olunmuş geniş tərkibli Şura iclası keçirilmişdir.**

# 2013-CÜ İL ŞİRVANLILAR ÜÇÜN UĞURLU OLMUŞDUR

Öncə Prezident Adminstrasiyasının məsul işçisi Ə.Əliyev, Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M. Camalov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdilər. Abidə önünə tər çiçəklər qoyuldu.

Sonra qonaqlar, tədbir iştirakçıları şəhərimizdə istehsal olunmuş məhsulların nümunələrindən ibarət sərgiyə tamaşa etmişlər.

Yığıncaqda şəhər icra hakimiyyətinin başçısı M.T.Camalovun hesabatı dinlənilmişdir.



Başçı ilk növbədə keçən ilin oktyabrın 9-da möhtərəm Prezidenimiz İlham Əliyevin böyük səs çoxluğu ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik etdi. Ona gərgin əməyində uğurlar arzuladı.

Sonra M.T.Camalov dedi ki, 2013-cü ildə iqtisadiyyatın bütün sahələrində irimiqyaslı islahatların düşünülmüş şəkildə davam etdirilməsi Azərbaycanı dünyanın ən islahatçı ölkəsi kimi tanıtmışdır. Bu gün ölkəmiz regionun və dünyanın böyük iqtisadi layihələrinin əsas tərəfdaşına çevrilmişdir. Bunu yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda qeyd edilən faktlar bir daha təsdiq edir.

Qeyri-neft sektorumuz 9,8 faiz artmışdır və bu da son illərdə aparılan uğurlu islahatların nəticəsidir.

İnflyasiya 2,4 faiz olduğu halda əhalinin pul gəlirləri 8 faiz artmışdır. Əhalinin pul gəlirləri inflyasiyanı 3 dəfədən çox üstələmişdir.

Sosial məsələlərin həlli həmişə olduğu kimi cənab Prezidentimzin diqqət mərkəzində olmuşdur. Bu sahədə ölkəmizdə aparılan siyasət 2013-cü ildə də davam etdirilmişdir.

Enerji sahəsində də böyük nailiyyətlər qazanılmışdır. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyasının icrası nəticəsində Azərbaycan enerji sahəsində dünya miqyasında çox nüfuzlu ölkəyə çevrilmişdir.

Bildiyiniz kimi ötən il iyul ayının 1-də cənab Prezident şəhərimizə səfər edərkən gücü 800 meqavata yaxın olan "Cənub" Elektrik Stansiyasının açılış mərasimində iştirak etdi. Hazırda Bakıda gücü 400 meqavata yaxın olan "Şimal-2" Elektrik Stansiyasının tikintisi davam etdirilir. Kiçik çaylar üzərində də elektrik stansiyalarının tikintisi davam etdirilir.

Qeyd etməliyəm ki, respublikamızda qazanılan və bütün sahələri əhatə edən uğurlarda Şirvan şəhər sakinlərinin də payı vardır.

Yola saldığımız 2013-cü ildə Şirvan şəhərinin sosial-iqtisadi inkişafında mühüm nəticələr əldə edilmiş, bir sıra məhsul növlərinin istehsalı sahəsində əsaslı dönüş yaradılmışdır.

Hesabat dövründə şəhərdə 312,5 min ton neft, 19,2 milyon kub.metr qaz, 3 milyard 656 milyon kvt/saat elektrik enerjisi istehsal edilmişdir. 2013-cü ildə tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş tikinti işlərinin həcmi 36,2 milyon manat olmuşdur ki, bu da 2012-ci illə müqayisədə 27,1 faiz çoxdur.

Azərbaycan Silahlı Qüvvələrini NATO dövlətlərinin standartlarına uyğun yeni növ məhsullarla təmin etmək məqsədilə "Telemexanika" zavodunda sahəsi 4 min kv.metrə yaxın olan istehsal sahəsi tikilmiş və bir neçə adda yeni məhsulların istehsalı üçün xarici dövlətlərdən ən müasir avadanlıqlar gətirilib quraşdırılmışdır. Cari ildə 10 növ yeni məhsul istehsalı nəzərdə tutulur ki, bu da əlavə 50-60 nəfərin işlə təmin olunmasına zəmin yaradacaqdır.

"Araz" zavodunda da istehsal planı uğurla yerinə yetirilmiş, 56 adda xüsusi və mülki təyinatlı məhsullar istehsal edilmişdir.

01 iyul 2013-cü il tarixdə cənab Prezident İlham Əliyev şəhərimizə səfəri zamanı "Telemexanika" zavodunda 2, "Araz" zavodunda isə 3 yeni istehsal sexlərinin açılış mərasimində iştirak etmişdir. Yeni istehsal sahələrində 78 nəfər işlə təmin olunmuşdur.

**(ardı 2-ci səhifədə)**

# 2013-CÜ İL ŞİRVANLILAR ÜÇÜN UĞURLU OLMUŞDUR

(əvvəli 1-ci səhifədə)

Şəhər əhalisinin qazla təminatı,su təchizatının yaxşılaşdırılması sahəsində də çox böyük işlər görülmüşdür.

Əhalinin elektrik enerjisi ilə təminatını daha da yaxşılaşdırmaq məqsədilə elektrik şəbəkələrinin, qurğularının istismarının təşkili və onların fasiləsiz işinin təmin edilməsi istiqamətində xeyli tədbirlər həyata keçirilmişdir.

Təhsilin keyfiyyətinin yüksəldilməsi, istedadlı şagirdlərin yetişdirilməsi diqqət mərkəzində saxlanılmışdır.

Dövlət Proqramına uyğun olaraq Mərkəzi Şəhər Xəstəxanasında böyük həcmdə əsaslı təmir işləri aparılmışdır. 2013-cü ildə Mərkəzi Şəhər Xəstəxanasının vəsaiti hesabına iki yardımçı bina əsaslı təmir edilmiş, ərazisi abadlaşdırılmışdır. İl ərzində xəstəxanaya 4100 xəstə daxil olmuş, imtiyazlı şəxslərə 403 min manat dəyərində pulsuz dərmanlar verilmişdir.

Şirvan Müalicə Diaqnostika Mərkəzində il ərzində ambulator xəstələrin sayı 22 min nəfərə yaxın, stasionara göndərilənlərin sayı isə 10 min nəfərdən çox olmuşdur.

Şəhər Mədəniyyət və Turizm şöbəsi mədəni-kütləvi və dövlət tədbirlərinin keçirilməsi işini tədbirlər planına uyğun həyata keçirmiş, 217 eksponatla fəaliyyətə başlayan Heydər Əliyev Mərkəzi hazırda 972 eksponatla zənginləşmişdir.



Ölkəmizdə idmanın daha da inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmış, bu istiqamətdə tərtib olunmuş tədbirlər planına müvafiq olaraq müəyyən işlər görülmüşdür.

2013-cü ildə Şirvan şəhər Bələdiyyəsi tərəfindən də xeyli tikinti-təmir, abadlıq işləri görülmüşdür.

Şəhər İcra Hakimiyyəti hesabat dövründə gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində də ardıcıl tədbirlər görmüş, hərbi-idman oyunlarının keçirilməsinə lazımi şərait yaratmışdır.

Şəhərin inzibati ərazi vahidinə 2 qəsəbə daxildir. Hər iki qəsəbənin işıq, qaz, texniki su təminatı normaldır.

2013-cü il ərzində Şirvan şəhər İcra Hakimiyyətinə Dövlət orqanlarından və digər qurumlardan baxılmaq üçün daxil olan müraciətlərin ümumi sayı 557, o cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından 493, Milli Məclisdən 22, Nazirlər Kabinetindən 21, respublikanın digər təşkilatlarından 21 və vətəndaşlardan bilavasitə İcra Hakimiyyətinə ünvanlanan müraciətlər 399 olmuşdur.

2013-cü il ərzində icra hakimiyyəti başçısı tərəfindən şəhərin müxtəlif ünvanlarında 40 səyyari qəbullar keçirilmişdir. Qəbullarda 2934 nəfər iştirak etmişdir.

2013-cü il ərzində İcra hakimiyyəti başçısının yanında Şuranın 24 iclası keçirilmişdir. İş planına uyğun olaraq Şuraya çıxarılan məsələlər şəhərin bütün infrastrukturunu əhatə etmişdir. Şəhərdə keçirilən tədbirlər, səyyari qəbullar, operativ məlumatlar müəyyən edilmiş qrafikə uyğun olaraq RAİS sisteminə ötürülmüşdür.

M.T.Camalov 2014-cü ildə görüləcək işlərdən də ətraflı danışdı.

Məruzə ətrafında müzakirələrdə Şirvan İES MMC-nin direktoru F.Süleymanov, MŞX-nin baş həkimi F.Səfərov, «Araz» zavodunun direktoru İ.Qurbanov, şəhər gənclər və idman idarəsinin rəisi A.Quliyev, Su-kanal idarəsinin müdiri M.Məmmədov çıxış etdilər.

Şəhər icra hakimiyyəti tərəfindən ərzaq mağazalarında keçirilən monitorinq zamanı müəyyən edilib götürülmüş saxlama müddəti ötmüş məhsulların bir qismi yığıncaq iştirakçıları qarşısında nümayiş olundu.

Başçı belə hallara qarşı bundan sonra da ciddi mübarizə aparılacağını söylədi.

Respublika Prezident Administrasiyasının məsul işçisi Ə.Əliyev çıxış etdi. Nailiyyətlər qeyd olundu. Qarşıda duran vəzifələrin uğurla həyata keçiriməsi üçün bütün imkanlardan səmərəli istifadənin vacibliyi vurğulandı.

Zalda quraşdırılmış mikrafonlara yaxınlaşanlar ötən il görülən işləri qeyd etməklə yanaşı, onları narahat edən məsələlərdən də danışdılar.

Müzakirə olunmuş məsələ ilə əlaqədar qərar qəbul olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə tədbir iştirakçıları adından müraciət qəbul olundu.

2013-cü ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncağı şəhər icra hakimiyyətinin başçısı M.T.Camalov yekunlaşdırdı.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**

# 2 FEVRAL GƏNCLƏR GÜNÜ QEYD OLUNDU

**«Yeganə» şadlıq sarayında 2 fevral Gənclər Günü münasibətilə musiqili əyləncəli tədbir keçirildi. Tədbirdə şəhər icra hakimiyyətinin başçısı M.Camalov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, fəal gəncləri iştirak etdilər.**

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov gəncləri təbrik etdi, ötən il ərzində əldə olunan nailiyyətlərdən danışdı və gənclərə yeni-yeni uğurlar arzuladı.

Sonra çıxış edən şəhər gənclər və idman idarəsinin rəisi Azər Quliyev 2013-cü ildə görülən işlərdən, qarşıda duran vəzifələrdən, respublikada gənclər və idman siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, Prezidentimizin ölkə idmanına göstərdiyi diqqət və qayğıdan, gənclərimiz üçün yaradılan şəraitdən danışdı. Şəhərimizin gənclərinə və idmançılarına göstərdiyi diqqət və qayğıya görə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova təşəkkürünü bildirdi.

2013-cü ildə «Xəmsə» Milli İntellektual oyunu üzrə gənclər arasında respublika çempionu və yeniyetmələr arasında respublika 3-cüsü olan gəncləri-miz başçı Mərdan Camalov tərəfindən mükafatlandırıldılar.

Tədbir incəsənət ustalarının, şəhərimizin istedadlı gənclərinin ifasında səslənən musiqilərlə davam etdirildi.

**Əfqan HƏSƏNOV,**
**gənclər və idman idarəsinin aparıcı-məsləhətçisi**

# ONLARIN XATİRƏSİ ƏBƏDİYAŞARDIR

**20 Yanvar faciəsinin 24-cü ildönümü münasibətilə müəssisənin yığıncaq zalında konfrans keçirilmişdir.**

Tədbiri «Şirvan İES» MMC YAP Ərazi İlk Təşkilatının sədri Mehman Cavadov açmışdır. Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş və onların müqəddəs ruhuna dualar oxunmuşdur.

Stansiyanın direktoru Fəzail Süleymanov «Xalqı azadlığa və müstəqilliyə aparan yol» mövzusunda məruzə ilə çıxış etmiş, faciənin tarixi kökləri, başvermə səbəbləri və nəticələri barədə ətraflı danışmışdır.

Məruzə ətrafında Qadınlar Şurasının sədri Dilarə Əliyeva, İqtisadiyyat şöbəsinin rəisi Gülməmməd Rzayev, təmir sahəsinin bölmə rəisi Davud Zeynalov çıxış etmişlər. Onlar 1990-cı ilin 19-20 yanvarında Sovet İttifaqı rəhbərliyinin və onun Azərbaycandakı əlaltılarının əli ilə xalqımıza qarşı qanlı qırğın törədildiyini söyləmişlər. Eyni zamanda 20 Yanvar hadisəsinin xalqımızın zaman-zaman apardığı azadlıq və istiqlal mübarizəsi tarixinə növbəti qəhrəmanlıq salnaməsi kimi həkk olunduğunu xüsusi qeyd etmişlər.



Müstəqil Azərbaycanın şəhidlərimizin xatirəsinə ən böyük abidə olduğunu, vətən yolunda canını qurban verən şəhidlərin qəhrəmanlığının heç vaxt unudulmayacağını bildirmişlər.

20 Yanvar 2014-cü il tarixdə «Şirvan İES» MMC-nin rəhbərliyi, ictimai təşkilatların, sex və şöbələrin nümayəndələri 20 Yanvar faciəsinin 24-cü ildönümü ilə bağlı keçirilən ümumşəhər tədbirinə qoşulmuş, Şəhidlər xiyabanında olmuş, , şəhid qəbirləri, 20 Yanvar abidəsi ziyarət edilmiş abidə ətrafına tər qərənfillər düzmüşlər.

**G.RZAYEV,**
**«Şirvan İES» MMC-nin İqtisadiyyat şöbəsinin rəisi**

## Şirvan şəhər 4 №-li tam orta məktəb bərk inventarların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar əlavə məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz.

Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 4 №-li tam orta məktəbə təqdim edilməlidir.

**Şirvan şəhər A.Hüseynzadə adına 4№-li tam orta məktəb.**
Ünvan: Neftçilər 15.
Əlaqə telefonu: 21-6-04-60.

## Şirvan şəhər 16 №-li tam orta məktəb bərk inventarların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar olaraq əlavə məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz.Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 16 №-li tam orta məktəbə təqdim edilməlidir.

**Şirvan şəhər B.Aslanov adına 16 №-li tam orta məktəb.**
Ünvan: T.İsmayılov 15.
Əlaqə telefonu: 21- 5-03-16.

## Şirvan şəhər 20 №-li tam orta məktəb bərk inventarlar, avadanlıqların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar olaraq əlavə məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz. Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 20 №-li tam orta məktəbə təqdim edilməlidir.

**Şirvan şəhər 20 №-li tam orta məktəb.**
Ünvan : T.İsmayılov 19\ 42.
Əlaqə telefonu: 21-5-12-15.

## Şirvan şəhər 21 №-li tam orta məktəb dəftərxana ləvazimatları, cari təmir, bərk inventarların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar olaraq əlavə məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz. Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 21№-li tam orta məktəbə təqdim edilməlidir.

**Şirvan şəhər 21 №-li tam orta məktəb**
Əlaqə telefonu: 21-5-03-21.

## Şirvan şəhər 10 №-li tam orta məktəb dəftərxana ləvazimatları, bərk inventar, cari təmir və avadanlıqların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar olaraq məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz.

Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 10 №-li tam orta məktəbə təqdim edilməlidir.

**Şirvan şəhər 10 №-li tam orta məktəb.**
Ünvan: S.Zeynalov 12/ 36.
Əlaqə telefonu:21- 5-03-10.

## Şirvan şəhər 9 №-li tam orta məktəb bərk inventarlar və avadanlıqların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar olaraq əlavə məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz. Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 9 №-li tam orta məktəbə təqdim edilməlidir.

**Şirvan şəhər 9 №-li tam orta məktəb.**
Əlaqə telefonu: 21-5-03-19.



# NÜMUNƏVİ MƏHƏLLƏ VƏ XEYİR-ŞƏR YERİ İSTİFADƏYƏ VERİLDİ

**Qışın soyuqlu günlərinin birində-fevralın 7-də I-t İbrahimov küçəsindəki 12.14.16№-li binaların sakinləri kimi bura toplaşanların qəlblərini isti hərarət bürüdü. Buna səbəb yeni, səliqəli, gözəl nümnəvi məhəllənin və bu məhəllədə təzə xeyir-şər yerinin istifadəyə verilməsi idi.**



Şirvan şəhər İcra Hakimiyyətini başçısı M.T.Camalovun, Şura üzvlərinin, hüquq-mühafizə orqanları, xidmət sahələri rəhbərlərinin, sakinlərin, ictimaiyyət nümayəndələrinin qatıldığı tədbir öncəsi yeni salınmış nümunəvi məhəlləyə baxış keçirildi. Uşaqlar, eləcə böyüklərin dincəlmələri üçün yaradılan şərait hamını razı saldı.

Başçı M.T.Camalov tədbiri açaraq dedi ki, ölkə Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrini vaxtında, layiqincə yerinə yetirmək üçün imkanlardan maksimum istifadə edirik. Sakinlərimizin istirahətlərini mənalı keçirmələri üçün prezident tapşırığı əsasında yeni-yeni nümunəvi məhəllələr inşa edirik. El arasında gözəl deyilib ki, xeyirlə şər qardaşdır. Sakinlərimizin bu mərasimlərini də rahat keçirmələri üçün yeni-yeni xeyir-şər yerləri tikirik. Bu məhəllənin ağsaqqalı Hacı Əbülhəsən Sərhəngov bir neçə ay öncəsi mənə müraciət etmişdi. Şəhər Bələdiyyəsinin sədri ilə imkanları müzakirə etdik. Bizim istiqamət və köməyimizlə şəhər Bələdiyyəsi bu nümunəvi məhəlləni və xeyir-şər yerini sakinlərin ixtiyarına verdi. Mən arzu edirəm ki, burada həmişə xeyir işlər keçirilsin. Bunun üçün isə hər cür şərait yaradılmışdır. Mətbəx və zal səliqəli tikilmiş, qabqacaq, lazımi avadanlıqlarla təmin edilmişdir.

Başçı bir daha sakinləri yeni məhəllənin və xeyir-şər yerinin açılması münasibətilə təbrik etdi.

Sonra şəhər Bələdiyyənin sədri Ə.Babayev çıxış etdi. Sədr də sakinləri yeni məhəllə münasibətilə xoş arzularını çatdırdı. Dedi ki, şəhər icra hakimiyyəti başçısı M.T.Camalovun yaxından köməyi ilə bu nümunəvi məhəlləni və xeyir-şər yerini istifadəyə verdik. Məhəllənin 150 ailəsi buradan rahat, səmərəli istifadə edəcək. Mən də onlara nümunəvi məhəllədə mənalı dincəlməyi, çoxlu xeyir işlər təşkil etmələrini arzulayıram.

Sakinlərdən Hacı Əbülhəsən Sərhəngov, Muradxan Əliyev, Şirinbala Babayev, Məmmədhəsən Həsənov və başqaları çıxış etdilər. Onlar şəhərimizdə aparılan abadlıq, quruculuq, tikinti işlərindən razı qaldıqlarını söylədilər. Göstərdikləri diqqət və qayğıya görə ölkə Prezidentinə, şəhər rəhbərliyinə razılıqlarını bildirdilər. Nümunəvi məhəllənin, xeyirşər yerinin inşasında əməyi olan hər bir kəsə təşəkkür etdilər.

Başçı M.T.Camalov bu tədbirin həm də sakinlərlə səyyar görüş olduğunu söylədi. Ona görə də başçıya, hüquq mühafizə orqanlarının, eləcə də tədbirə dəvət olunmuş xidmət sahələrinin rəhbərlərinə xahişlərini, təkliflərini, şikayətlərini bildirmək imkanlarının olduğunu söylədi.

Sıxış edən sakinlər qayğı və köməyə görə razılıqlarını bildirdilər, narahat edən məsələlərlə əlaqədar müraciət etdilər. Onlar diqqətlə dinlənildi, lazımi köməklik göstəriləcəyinə söz verildi.

Tədbiri başçı M.T.Camalov yekunlaşdırdı. Sakinlərə nümunəvi məhəllədə mənalı dincəlməyi, xeyir işlər keçirməyi arzuladı.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**

## M.Ə.RƏSULZADƏ-130

# YUBİLEYƏ HƏSR OLUNMUŞ TƏDBİR



**Yanvarın 31-də 2№-li tam orta məktəbdə Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri olan Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyi münasibətilə tədbir keçirildi. Tarix müəllimi Naibə Mirzəyeva çıxışında ilk növbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında» 2013-cü il 22 noyabr tarixli sərəncamının əhəmiyyətini qeyd etmişdir.**

Naibə müəllimə sonra demişdir ki, M.Ə.Rəsulzadə xalqımızın müstəqillik idealının gerçəkləşməsində, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xidmətlər göstərmişdir.

M.Ə.Rəsulzadənin dövlətçilik tarixindəki rolundan danışan natiq qeyd etmişdir ki, 1918-ci ilin mayın 26-da Zaqafqaziya seymi buraxılmışdır. Bir gün sonra Azərbaycan Milli Şurası yaranmışdır. M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. Milli Şura 6 bənddən ibarət «İstiqlal» Bəyannaməsi qəbul etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti parlamentli respublika elan olunmuşdur.

N.Mirzəyeva onu da bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və yaradıcılarından olan M.Ə.Rəsulzadə siyasi fəaliyyəti ilə yanaşı Azərbaycan mətbuatı tarixində siyasi publisistikanın da ən görkəmli nümayəndələrindən biri kimi yaradıcılığını uğurla davam etdirib.

Tədqiqatlar göstərir ki, 1903-1920-ci illərdə təkcə Azərbaycanın dövrü mətbuatında onun 1200-dən çox müxtəlif janrda yazıları dərc olunmuşdur. O, ədəbi publisist fəaliyyətini mühacirət illərində də davam etdirmiş, Azərbaycan xalqının tarixi və ədəbiyyatı ilə bağlı çoxsaylı məqalələr dərc etdirmişdir.

Azərbaycan keçən əsrdə iki dəfə öz müstəqilliyini elan edib. 1918-ci ildə qurulan müstəqil Azərbaycanın ömrü çox qısa oldu, belə ki, xarici müdaxilə, daxili çəkişmələr, digər amillər üzündən Azərbaycan Demokratik Cümhuriyyəti 23 aydan sonra süqut etdi. Ötən əsrin son on illiyinədək davam edən sovet hakimiyyəti illərində xalqımız dövlət müstəqilliyindən məhrum olsa da, respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmiş və müstəqilliyi üçün lazımi əsaslar yaratmışdır.

Ötən əsrin sonlarında xalqımıza yenidən dövlət müstəqilliyinə qovuşmaq nəsib oldu. Ulu öndər Heydər Əliyevin parlaq zəkası, uzaqgörən siyasəti nəticəsində əldə etdiyimiz və bu gün də böyük uğurla qoruyub saxlaya bildiyimiz Azərbaycanın dövlət müstəqilliyi xalqımızın tarixi nailiyyətidir. Bu, ümummilli lider Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir.

Məktəbin X-a sinif şagirdi Aytac Qafarova M.Ə.Rəsulzadənin həyatı, Azərbaycanın azadlığı, müstəqilliyi uğrunda apardığı mübarizə, bu yolda gördüyü çətinliklər, məşəqqətli mühacir fəaliyyəti, doğma Vətən həsrəti, qürbətdə yaşamağına baxmayaraq Vətəndə ölüb, doğma Vətən torpağına qovuşmaq arzusu barədə geniş və ətraflı məruzə ilə çıxış etdi.

Sonra məktəbin şagirdləri tərəfindən hazırlanmış ədəbi-bədii kompazisiya təqdim olundu. Onlar İstiqlal şairləri A.İldırım, Ə. Cavad, C.Cabbarlı, S.Vurğun, M.Araz, X.Rza və başqa görkəmli Azərbaycan şairlərinin şeirləri, vətən haqqında bəstələnmiş mahnılar səsləndirildər.

Tədbirin maraqlı keçməsində R.Aslanov, Ə.Əliyeva, L.Əlizadə, M.Mirzəyeva, L.Səhratzadə, H.Şamilova, N.Kərimli, X.Manafova və başqa şagirdlərin xüsusi səyi və zəhməti vardır.

Ədəbi-bədii gecənin sonunda çıxış edən məktəbin direktoru Ə.Əliyeva qeyd etdi ki, Vətəni sevmək, Vətən naminə yaşamaq, ona xidmət etmək üçün hansısa seçilmiş sənət, peşə sahibi olmağa ehtiyac yoxdur. Fəhlə də, müəllim də, həkim də Vətən üçün yaşaya, öz əməli ilə onun şöhrətini artıra bilər. Əsgər döyüş meydanında vuruşur, fəhlə, mühəndis, alim öz əməyi ilə dövlətinin şöhrətini və iqtisadi qüdrətini artırır. Görkəmli ictimai-siyasi xadim, publisist, Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) banilərindən olan M.Ə.Rəsulzadə millətinin, xalqının belə sevimli övladlarındandır. Qədirbilən xalq buna görə onun 130 illik yubileyini belə təntənə ilə qeyd edir.



Ə.Əliyeva çıxışının sonunda Azərbaycanın Xalq Cümhuriyyətinin banilərindən olan M.Ə.Rəsulzadənin yubileyi ilə əlaqədar tədbirin hazırlanıb keçirilməsində zəhməti olan bütün müəllim və şagirdlərə, xüsusilə də tarix müəllimi N.Mirzəyevaya və VII b sinif şagirdlərinə şəhər Təhsil şöbəsi və məktəb rəhbərliyi adından təşəkkür etdi.

**İlkin ŞAHBAZOV,**
**2№-li tam orta məktəbin sinifdən xaric və dərsdən kənar işlər üzrə direktor müavini**

## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

# Əmək münasibətləri üzrə vergidən yayınma riskləri barədə

## BİLDİRİŞ

Ölkədə həyata keçirilən uğurlu iqtisadi islahatlar bazar iqtisadiyyatı şəraitində sahibkarlıq mühitinin dinamik inkişafına və son nəticədə əhalinin gəlirlərinin artmasına səbəb olmuşdur.

Lakin əhalinin həyat səviyyəsinin, eləcə də gəlirlərinin artmasına baxmayaraq, vergi orqanına təqdim olunan muzdlu işlə əlaqədar əmək haqqından tutulan gəlir vergisi hesabatlarında real vəziyyətə uyğun göstəricilər əks etdirilmir.

Belə ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.6-cı maddəsinə əsasən fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 200 manatadək olduqda, əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 1 misli, illik gəliri 2400 manatadək olduqda, əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi gəlir vergisindən azaddır.

«Azərbaycan Respublikasında 2013-cü il üçün yaşayış minimumu haqqında» 22 noyabr 2013-cü il tarixli Azərbaycan Respublikası Qanununa əsasən 2014-cü il üçün yaşayış minimumu əmək qabiliyyətli əhali üçün 136 manat müəyyən edilmişdir.

Bildiririk ki, vergi orqanına təqdim etdiyiniz bəyannamələrdə işçilərə ödənilən əmək haqqı məbləğinin ərazi və fəaliyyət sahəsi üzrə orta əmək haqqı səviyyəsindən kəskin az məbləğdə göstərilməsi və bu zaman həmin məbləğin əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumu səviyyəsində olması, vergi orqanında vergidənyayınma məqsədilə işçilərin real əmək haqqının gizlədilməsi qənaətinin yaranmasına səbəb olur.

Nəzərinizə çatdırırıq ki, tərəfinizdən təqdim ediləcək bəyannamə ilə bağlı sənədlərdə olan məlumatlar arasında ziddiyyət aşkar ediləcəyi təqdirdə vergi orqanının Vergi Məcəlləsinin 37-ci və 83-cü maddələrinin tələblərinə əsasən Sizin vergi öhdəliklərinizi yenidən hesablamaq hüququ vardır.

Həmçinin, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 53.3-cü maddəsinin tələblərinə əsasən işçiyə qanunvericiliklə müəyyən edilmiş minimum əmək haqqından aşağı məbləğdə əmək haqqı verilməsinə görə vəzifəli şəxslər min manatdan min beş yüz manatadək miqdarda cərimə edilir.

Tərəfinizdən təqdim edilən bəyannamələrdə işçilərə ödənilən əmək haqqı məbləğinin real əks etdirilməsi Sizə tövsiyə olunur.

Eyni zamanda, Dövlət Statistika Komitəsi tərəfindən qeyri-dövlət sektoru üzrə müxtəlif fəaliyyət sahələrində peşələr və vəzifələr üzrə orta aylıq əmək haqqına dair siyahı məlumat üçün Sizə təqdim olunur.

Əlavə məlumatı Vergilər Nazirliyinin 195 nömrəli Çağrı Mərkəzinə və ya rəsmi İnternet saytına (www.taxes.gov.az) müraciət etməklə, eləcə də 5 saylı Ərazi Vergilər İdarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinə (telefon tel;021 216-11-02) və ya müvafiq hesab etdiyiniz Vergi ödəyicilərinə xidmət mərkəzlərinə (Salyan şəhəri, H.Əliyev prospekti, tel; 021 255-14-10, Sabirabad şəhəri, İ.İsgəndərov küçəsi, tel: 021 235-93-21, Saatlı şəhəri Q.Qarayev 5, tel: 021 285-39-99, Neftçala şəhəri, H.Əliyev prospekti 31, tel: 021 263-40-11 və Hacıqabul İ.Qayıbov küçəsi 15, tel: 021 204-35-83) zəng etməklə və ya şəxsən gəlməklə əldə edə bilərsiniz.

**5 saylı Ərazi Vergilər İdarəsi**

# DAXİLİ İŞLƏR NAZİRİ VƏTƏNDAŞLARI QƏBUL EDƏCƏK

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən cari ilin fevral ayının 22-də Şirvan şəhərində vətəndaşların qəbulu keçiriləcək. Nazir Şirvan şəhər, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab və Saatlı rayonlarının sakinlərini qəbul edəcək.

Qəbul saat 11:00-da başlanacaqdır.

## Şirvan şəhər prokurorluğunun əməliyyat işçilərinin 2014-cü ilin I rübündə vətəndaşların yerlərdə qəbulunun keçirilməsinə dair

### C Ə D V Ə L

| № | Qəbulun keçirildiyi yer | Tarix | İcraçılar |
|---|---|---|---|
| 1 | Şirvan şəhəri,Bayramlı qəsəbəsi | 22.01.2014 | Prokurorun köməkçisi İlyas Hüseynov |
| 2 | Şirvan «Telemexanika»zavodu | 05.02.2014 | Prokuror Həsən Həniféyev |
| 3 | Şirvan «Telekommunikasiya»qovşağı | 25.02.2014 | Prokurorun köməkçisi İlyas Hüseynov |
| 4 | Şirvan şəhəri,21№-li tam orta məktəb | 14.03.2014 | Prokuror Həsən Hənifəyev |
| 5 | Şirvan «Araz» zavodu | 27.03.2014 | Prokurorun köməkçisi İlyas Hüseynov |

**Həsən HƏNİFƏYEV,**
**Şirvan şəhər prokuroru baş ədliyyə müşaviri**

## E L A N

«DİO-nın sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqə yanvar ayının 21-dən, fevral ayının 22-dək sənəd qəbulu elan edilir».

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ AŞAĞIDAKI POLİS ORQANLARINDA VAKANT OLAN SIRAVİ VƏ KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

**Post-patrul xidmətinin polis nəfəri vəzifəsinə:**

Çevik Polis Alayında (166 vəzifə), Nəqliyyatda Baş Polis İdarəsinin orqan və hissələri üzrə (23), Bakı şəhərinin Səbail(1) Qaradağ (2), Sabunçu (2), Nəsimi (2), Suraxanı (2) rayon polis idarələrində, Pirallahı rayon polis şöbəsində (7), Bakı Metropoliteninin mühafizəsi üzrə Polis şöbəsində (2), Gəncə şəhər baş polis idarəsində (2), Sumqayıt şəhər polis idarəsində (19),Abşeron (3), Ağdam (2), Ağdaş (1), Ağsu (5), Ağstafa (1), Ağcabədi (1), Astara (2), Balakən (1), Beyləqan (2). Biləsuvar (2), Bərdə (2), Qobustan (2), Quba (4), Qusar (9), Qəbələ (3), Daşkəsən (2), Gədəbəy (1), Zəngilan (1), İmişli (3), İsmayıllı (4), Yardımlı (4), Yevlax (2), Kürdəmir (6), Lerik (1), Lənkəran (1), Masallı (1), Mingəçevir (1), Naftalan (6), Neftçala (3), Oğuz (4), Sabirabad (1), Samux (1), Salyan (3), Ucar (5), Cəlilabad (11), Şamaxı (1), Şəki (11), Şabran (5), Şirvan (1), Hacıqabul (1), Xızı (2) şəhər, rayon polis şöbələrində;

**Yol-Patrul xidməti inspektoru vəzifəsinə:**

Bakı şəhəri Dövlət Yol Polis İdarəsində (56 vəzifə), Bakı şəhərinin Sabunçu (2) rayon polis idarəsində, Pirallahı rayon polis şöbəsində (2), Abşeron (2), Ağstafa (1), Ağcabədi (2), Astara (1), Balakən (1), Beyləqan (1), Qazax (1), Qobustan (1), Qubadlı (1), Qusar (1), Lerik (1), Masallı (2), Naftalan (1), Neftçala (1), Sabirabad (1), Salyan (3), Siyəzən (2), Fuzuli (1), Şabran (3), Şəki (1), Şəmkir (1) şəhər, rayon polis şöbələrində

439 vakant vəzifəni tutmaq məqsədilə keçiriləcək müsabiqədə Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), yaşı 20-dən az, 30-dan çox olmayan, boyu 175 santimetrdən (qadınlar üçün 170 sm.) hündür olan, düzgün bədən quruluşlu və idman cüssəli, tam orta təhsilli (YPX inspektoru vəzifələrinə isə əlavə olaraq avtomobil nəqliyyatına aid olan orta-ixtisas və ya ali təhsilli, 3 ildən az olmayan sürücülük stajı olan, kompüterdən istifadə etməyi bacaran) və «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqə zamanı xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük verilir.

Şərtlərə uyğun gələn, müsabiqədə iştirak etmək arzusu olan şəxslər vakant olan vəzifələrə müsabiqə elan olunmuş polis orqanına ərizə ilə müraciət edərək aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

-şəxsiyyət vəsiqəsini;
-təhsil haqqında sənədin əslini;
-hərbi bileti (kişilər üçün);
-Əmək kitabçasını (olanlar üçün).

## Şirvan şəhər 11 №-li tam orta məktəb bərk inventarlar, cari təmir və avadanlıqların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar olaraq əlavə məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz.

Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 11 №-li tam orta məktəbə təqdim edilməlidir.

**Şirvan şəhər T.Bağırov adına 11 №-li tam orta məktəb.**
Ünvan: H.Əliyev pr 1.
Əlaqə telefonu: 21-6-19-23.

## Şirvan şəhər 13 №-li tam orta məktəb bərk inventarlar və avadanlıq alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar olaraq əlavə məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz. Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 13 №-li tam orta məktəbə təqdim edilməlidir.

**Şirvan şəhər 13 №-li tam orta məktəb.**
Ünvan: T.İsmayılov 19/ 25
Əlaqə telefonu:21- 6-05-29.

## Şirvan şəhər 14 №-li tam orta məktəb bərk inventarlar və avadanlıqların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar olaraq əlavə məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz. Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 14 №-li tam orta məktəbə təqdim edilməlidir.

**Şirvan şəhər 14 №-li tam orta məktəb.**
Əlaqə telefonu: 21-6-02-37.

## Şirvan şəhər 1 №-li tam orta məktəb bərk inventarlar və avadanlıqların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar olaraq əlavə məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz. Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 1 №-li tam orta məktəbə təqdim edilməlidir.

**Şirvan şəhər 1 №-li tam orta məktəb.**
Əlaqə telefonu: 21-6-06-65.

## Şirvan şəhər 18 №-li tam orta məktəb cari təmir, bərk inventarlar və avadanlıqların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar olaraq əlavə məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz. Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 18 №-li tam orta məktəbə təqdim edilməlidir.

**Ünvan: T.İsmayılov 15\ 35**
Əlaqə telefonu: 21-5-03-18.

## Şirvan şəhər 12 №-li tam orta məktəb bərk inventarlar və avadanlıqların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar olaraq məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz.

Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 12 №-li tam orta məktəbə təqdim edilməlidir.

Şirvan şəhər 12 №-li tam orta məktəb.
**Ünvan:Məhəmməd Əmin Rəsulzadə 1.**
Əlaqə telefonu: 21- 5-85-77.

## Şirvan şəhər 2№-li tam orta məktəb bərk inventar və avadanlıqların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar əlavə məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz. Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 2№-li tam orta məktəbə təqdim edilməlidir.

Şirvan şəhər 2№-li tam orta məktəb.
**Ünvan: Gülbala Şıxbala oğlu küç 153/2**
Əlaqə telefonu: 21-6-13-01.

## Şirvan şəhər 3№-li tam orta məktəb dəftərxana ləvazimatları, bərk inventarlar, avadanlığın alınması və cari təmir üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz. Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər 3№-li tam orta məktəbə təqdim edilməlidir.

Şirvan şəhər 3№-li tam orta məktəb.
**Ünvan: Bayramlı qəsəbəsi, Sabir küçəsi 3.**
Telefon: 21-6-11-24.

## Şirvan şəhər Təhsil Şöbəsi dəftərxana ləvazimatları, cari təmir və bərk inventarların alınması üzrə kotirovka sorğusu keçirir

Kotirovka sorğusu ilə əlaqədar olaraq əlavə məlumatları kotirovka komissiyasından əldə edə bilərsiniz. Kotirovka təklifləri 2014-cü ilin fevral ayının 25-dən gec olmayaraq Şirvan şəhər Təhsil Şöbəsinə təqdim edilməlidir.

**Şirvan şəhər Təhsil Şöbəsi.**
Əlaqə telefonu: 21-5-10-74.

## ŞƏHƏR SAKİNLƏRİNİN NƏZƏRİNƏ!

17 fevral 2014-cü il tarixdən 1 may 2014-cü il tarixə kimi şəhər əhalisinin sağlamlığını yaxşılaşdırmaq məqsədilə kütləvi tibbi müayinəsinə başlanılacaq.

Tibbi müayinələr istirahət günü istisna olmaqla hər gün səhər saat $8^{oo}$-dan axşam $17^{oo}$-dək MŞX-nin poliklinika şöbəsində aparılacaq.

**Şirvan şəhər mərkəzi xəstəxanasının rəhbərliyi**

## Allah rəhmət eləsin

Möhsüm Xəlilov və Fəxrəddin Rəhimov Adəm Hüseynova anası

**LEYLA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Möhsüm Xəlilov və Fəxrəddin Rəhimov Mayis Qarayevə anası

**SƏDƏF XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan şəhər Peşə liseyinin direktoru İlyas Mirzəyev və başçılıq etdiyi kollektiv Mayis Qarayevə anası

**SƏDƏF XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor:
M.M.XƏLİLOV

*Təsisçilər:*
Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet "OL"MKPT MMC-də ofset üsulu ilə çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-06-60
Redaktor müavini: 6-19-18

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 1200